# Qarabağa daimi sülh gətirəcək böyük qələbə

**Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, ATƏT-in Minsk qrupu münaqişənin həlli üçün heç bir addım atmadı, Ermənistanın dəfələrlə Azərbaycan ərazilərinə etdiyi hücumlara əhəmiyyət vermədi. Təbii ki, belə şəraitdə, yeni erməni təxribatına qarşı Azərbaycanın əks-hücum əməliyyatlarına başlamaqdan başqa çarəsi yox idi. Və bu müharibə Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi.**





Şuşanın azad edilməsi göstərdi ki, Ermənistanın artıq bu müharibəni davam etdirməyə nə hərbi qüvvəsi var, nə də iqtisadi, siyasi gücü. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoydu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafının əsaslarını yaratdı. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi.

Şübhəsiz ki, atəşkəsi və sülhü təmin edən üçtərəfli bəyanatın əhəmiyyəti böyükdür. Qələbələrdən sonra sülh çox vacibdir. Müharibədə qalib gəlməklə, qələbəni qeyd etməklə yanaşı, sülhə nail olmaq Azərbaycan üçün böyük uğurdur. 27 sentyabrdan 10 noyabradək davam etmiş 44 günlük müharibənin doğru və real qiymətləndirilməsi zamanı sülh masasının Azərbaycan üçün çox böyük faydası oldu. Ermənistan silahlı qüvvələri otuz ildir işğal etdiyi Azərbaycan ərazilərindən qovuldu. İkincisi, heç bir təmas xətti, status-kvo yoxdur. Qarabağın statusuna gəlincə, Qarabağ Azərbaycan ərazisidir. Bəyannamənin müddəalarında bu faktı təkzib edəcək heç bir fikir yoxdur. Qardaş ölkə nəzərdə tutulan hərbi məqsədlərlə yanaşı, siyasi hədəflərinə də çatdı. 44 günlük müharibənin sona çatması, Rusiyanın da iştirak etdiyi sülh masası Azərbaycanın mahiyyət etibarilə çox güclü bir diplomatiyası olduğunu göstərir.

Azərbaycanın hər cür təcavüzkar cəhdləri dəf etməyə qadir olduğunu ortaya qoydu. Xalqın milli maraqlar ətrafında birləşdiyini bütün dünyaya göstərdi.

Qardaş ölkənin beynəlxalq hüquqa əsaslanan haqq işində ikili standart, açıq şəkildə ermənipərəst mövqe göstərən dövlətlərlə yanaşı ədaləti dəstəkləyən ölkələr də oldu. Azərbaycan hökumətinə beynəlxalq arenada, Türkiyə, Pakistan, Gürcüstan, Ukrayna, Qoşulmama Hərəkatının üzvü olan bir sıra dövlətlər mənəvi, siyasi dəstək nümayiş etdirdilər.

Paşinyan müharibənin ilk anından etibarən havadarlarından Ermənistanın lehinə güclü bir müdaxilə gözləyir, yalan məlumatlarla dünya ictimaiyyətinin diqqətini cəlb etməyə çalışır, silah və maliyyə yardımı alırdı. Ancaq bu ölkələrdə müharibəyə aktiv qarışmaq meyli olmadı. Çünki Ermənistanın hər fürsətdə təcavüzkar siyasətini dəstəkləyən və təşviq edən ölkələrin ermənilər üçün əsla vuruşmayacağı və hər zaman öz mənfəətləri üçün ondan bir vasitə olaraq istifadə edəcəyi bir gerçək idi. Regionun gələcək vəziyyətinə, Azərbaycanın təhlükəsizlik məsələlərinə gəlincə, Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, Qarabağda Azərbaycan Silahlı Qüvvələri ilə yanaşı, Türkiyə və Rusiyanın sülhməramlı qüvvələri də təmsil olunacaq. Türkiyə Silahlı Qüvvələrinin olduğu yerdə davamlı sülh olacaqdır! Bundan sonra bir barış dövrüdür, sülh üçün bir fürsət vermək lazımdır. Ümid edirik ki, Qafqaza sülh gələcək və ölkələr bir-biri ilə düşmənçilik etməyəcək.

Bu qalibiyyəti Azərbaycan xalqına və biz türk millətinə yaşadan şəhidləri rəhmətlə, qaziləri hörmət və minnətdarlıqla anıram. Qələbə münasibətilə başda Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev olmaqla Azərbaycan Ordusunun bütün heyətini hörmətlə salamlayıram.

**Qələbəniz mübarək!**
**Qələbəmiz mübarək!**

***Professor Dr. ZAKİR AVŞAR,***
***Ankara Hacı Bayram Vəli Universiteti jurnalistika fakültəsinin dekanı***

Xalq qəzeti 2020.- 19 noyabr.- S.6.